# Əgər insanlar zalımı görüb, onun zülmünə maneə olmasalar, Allahın öz əzabını onların hamısına göndərməsi yaxın olar

Əbu Bəkr əs-Siddiqdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: “Ey insanlar, siz bu ayəni oxuyursunuz: {Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, (haqq yoldan ) azmışlar sizə zərər yetirə bilməzlər} və mən Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Əgər insanlar zalımı görüb, onun zülmünə maneə olmasalar, Allahın öz əzabını onların hamısına göndərməsi yaxın olar."

[Səhih] [Əbu Davud,Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, İbnu-Məcə və Əhməd rəvayət etdi]

Əbu Bəkr əs-Siddiq (Allah ondan razı olsun) rəvayət edir ki, insanlar bu ayəni oxuyurlar : {Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, (haqq yoldan ) azmışlar sizə zərər yetirə bilməzlər.} [Maidə,105] Və onlar ondan elə başa düşürlər ki, insan ancaq özünü islah etmək üçün səy göstərməlidir və bundan sonra azmış kəsin azğınlığından ona heç bir zərər dəyməz və onlardan yaxşılığı əmr edib, pislikdən çəkindirmək tələb olunmur! Buna görə o, onlara bunun belə olmadığını, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdiyini bildirdi: Əgər insanlar, zalımı görüb, onun qarşısını almağa qadir olduqları halda onu zülm etməkdən çəkindirməsələr, Allahın hər kəsi, istər pislik edəni, istərsə də buna susanı Öz tərəfindən cəzalandırması yaxındır.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee